**Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda elmi araşdırmaların həyata keçirilməsinin zəngin ənənələri vardır. Yüzillər boyu mütəfəkkir sənətkarlarımız tərəfindən yaradılan və bədii-estetik düşüncə tariximizin incilərinə çevrilən əsərlərdə elmi-fəlsəfi fikirlər parlaq təcəssümünü tapmışdır. Bəşəriyyətin fəlsəfi, mədəni və elmi irsinin Şərqlə Qərb arasında varislik əlaqələrinin qorunub saxlanmasında azərbaycanlı alimlər yaxından iştirak etmişlər. Onlar elmi təfəkkürün ən müxtəlif sahələrində sanballı əsərlər meydana gətirməklə islam aləminin mədəni intibahına müstəsna xidmətlər göstərmişlər. Dünya elmi fikir tarixinə görkəmli şəxsiyyətlər bəxş edən Azərbaycanda bütün bu dövrlərdə elm özünün yüksək səviyyəsi ilə seçilmişdir.

Neftin sənaye üsulu ilə çıxarılması və Bakının dünyanın neft paytaxtlarından birinə çevrilməsi nəticəsində ölkəmizdə zamanın tələblərinə uyğun müasir tipli yeni tədqiqatlar meydana gəlmişdir. Azərbaycanın tarixi, ədəbiyyatı və arxeologiyasına dair ənənəvi tədqiqatlarla yanaşı, elmimiz üçün yeni olan neft, neft emalı və neft kimyası sahələri ilə bağlı fundamental araşdırmalara başlanmışdır. Bakı Dövlət Universitetinin yaradılması, ali məktəblərdən və elmi tədqiqat institutlarından ibarət geniş şəbəkənin qurulması elmi araşdırmaların mütəşəkkil qaydada təşkilinə zəmin hazırlamışdır.

XX əsrin birinci yarısında ölkəmizdə təhsilin və elmin inkişafının məntiqi yekunu kimi 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təsis olunmuş və xalqımızın zəngin mədəni irsinin tədqiqi ilə bərabər, təbii ehtiyatların öyrənilməsi, kənd təsərrüfatı, səhiyyə, eləcə də digər istiqamətlərdə akademik araşdırmaların həyata keçirilməsi sistemli xarakter almışdır.

Sovet elminin ümumi strategiyasına müvafiq olaraq inkişaf edən Azərbaycan elmi ötən əsr ərzində təqdirəlayiq nailiyyətlər əldə etmişdir. Bir çox Azərbaycan alimlərinin həm ittifaq, həm də respublika miqyasında sanballı mükafatlara layiq görülməsi elmimizin qazandığı uğurların parlaq göstəricisidir. Ölkənin iqtisadi potensialının formalaşdırılmasında Azərbaycan elminin əhəmiyyətli rolu olmuşdur.

1980-ci illərin sonlarından etibarən yaranmış dərin iqtisadi və sosial böhran elmdə də özünü kəskin şəkildə büruzə vermişdir. Elmi əlaqələrin qırılması, müştərək tədqiqat planlarının pozulması, vahid maliyyə sisteminin dağılması və başqa amillər elmin gələcək inkişafı yolunda ciddi maneələr törətmişdir.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra elmdə islahatların gerçəkləşdirilməsi üçün əlverişli şərait yaranmasına baxmayaraq, elmin ümumi vəziyyəti təhlil edilməmiş və onun ölkənin müasir tələblərinə uyğun istiqamətləri müəyyən olunmamışdır. Bu səbəbdən də keçən müddət ərzində aparılan elmi tədqiqatlar səviyyə etibarilə respublikanın davamlı yüksəlməkdə olan inkişaf tempindən geri qalır.

Humanitar və ictimai elmlər sahəsində nailiyyətlər əldə edilsə də, sovet ideologiyasının təsiri və təzyiqi ucbatından tariximizin bir sıra məqamları təhrif olunmuş, bəzi dövrləri isə tədqiqatdan kənarda qalmışdır. Milli müstəqillik dövrü xalqımıza məxsus mədəni-mənəvi dəyərlərlə bağlı olan istiqamətlərdə bir çox məsələlərin yenidən, azərbaycançılıq məfkurəsi mövqeyindən işıqlandırılmasını aktuallaşdırmışdır.

Hazırda Azərbaycanda elmi araşdırmalar ali təhsil müəssisələrində və 80-dən artıq elmi tədqiqat institutunda 30 minə yaxın elmi işçi tərəfindən həyata keçirilir. Həmin tədqiqat institutlarının bir qismi elmi araşdırmalar aparmır və daha çox tabeçiliyində olduğu qurumların tapşırıqlarını yerinə yetirir. Eyni zamanda, istər sahə institutlarında, istərsə də akademik qurumlarda elə şöbə, mərkəz və laboratoriyalar mövcuddur ki, onların illərdən bəri köhnəlmiş qayda və metodlarla davam etdirdikləri tədqiqatlar yeni dövrün standartlarına cavab vermir. Müasir elmin tələbləri ilə ayaqlaşmaq iqtidarında olan kollektivlər isə maddi-texniki bazanın zəifliyi və maliyyə çatışmazlığı səbəbindən öz elmi layihələrini gerçəkləşdirməkdə çətinliklərlə üzləşirlər. Ayrı-ayrı alimlərimizin dünyanın aparıcı elm mərkəzləri ilə işgüzar əlaqələr qurmaları və mötəbər konfranslarda iştirak etmələri də nəticə baxımından elmin inkişafına gözlənilən təsiri göstərmir.

Azərbaycanda ümumən elmin maliyyələşmə mexanizmləri və elmi işçilərin sosial təminatı məsələləri hələlik günün tələbləri səviyyəsində deyildir. Ölkədə aparıcı alimlər nəslinin yaşlaşması və gənc nəslin elmə axınının zəifləməsi elmdə kadr potensialının aşağı düşməsi təhlükəsini yaratmışdır. Azərbaycan Milli Elmlər Akademiyası isə elmin strategiyasına dair məsələləri müzakirə etsə də, bu günədək müstəqil Azərbaycan Respublikasında elmin yeni simasını müəyyən etməyə və elmi araşdırmaların dünyada qəbul edilmiş sxemlər əsasında maliyyələşdirilməsinə nail ola bilməmişdir.

Mövcud vəziyyət ölkənin inkişafının üstün istiqamətlərindən olan elm sahəsində ən qısa zamanda islahatların aparılması və bununla əlaqədar bir çox vəzifələrin təxirə salınmadan sürətlə öz həllini tapması zərurətini meydana çıxarmışdır.

Azərbaycan Respublikasında elmi qurumların strukturunun müəyyənləşdirilməsi, tədqiqatların müasir standartlar səviyyəsində aparılması və maliyyələşdirilməsi, ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsi, bütövlükdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını sürətləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan elmində islahatların aparılması ilə bağlı aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

**Dövlət Komissiyasının sədri**

| | |
|---|---|
| Artur **Rasizadə** | - Azərbaycan Respublikasının Baş naziri |

**Dövlət Komissiyası sədrinin müavini**

| | |
|---|---|
| Mahmud **Kərimov** | - Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |

**Dövlət Komissiyasının üzvləri**

| | |
|---|---|
| Samir **Şərifov** | - Azərbaycan Respublikasının maliyyə naziri |
| Şahin **Mustafayev**[1] | - Azərbaycan Respublikasının iqtisadiyyat ~~və sənaye~~ naziri[2] |
| *Ramin **Quluzadə*** | *- Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*[3] |

| | |
|---|---|
| Misir **Mərdanov** | - Azərbaycan Respublikasının təhsil naziri |
| Oqtay **Şirəliyev** | - Azərbaycan Respublikasının səhiyyə naziri |
| İsmət **Abasov** | - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri |
| Yavər **Camalov** | - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri |
| Arif **Mehdiyev** | - Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri |
| ~~Məcid **Kərimov**~~[4] | ~~- Azərbaycan Respublikası "Azərikimya" Dövlət Şirkətinin prezidenti~~ |
| Xoşbəxt **Yusifzadə** | - Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti[5] |
| Abel **Məhərrəmov** | - Bakı Dövlət Universitetinin rektoru |
| Şəmsəddin **Hacıyev** | - Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru |
| Akif **Əlizadə** | - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| Nailə **Vəlixanlı** | - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti |
| Ağamusa **Axundov** | - Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi |

2. Bu sərəncamın 1-ci bəndi ilə yaradılmış Dövlət Komissiyası Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanı və həmin strategiyanın həyata keçirilməsi üzrə Dövlət Proqramının layihəsini altı ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 aprel 2008-ci il
2756

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 aprel 2008-ci il tarixli **2773** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 4, maddə 290**)
2. 13 fevral 2009-cu il tarixli 61 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“**Azərbaycan” qəzeti, 2009-cu il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 74**)
3. 23 iyun 2010-cu il tarixli **286** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 501)**
4. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, 101)**
5. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
7. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521)**

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 13 fevral 2009-cu il tarixli 61 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“**Azərbaycan” qəzeti, 2009-cu il, 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 02, maddə 74**) ilə 1-ci bəndində "**Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri**" sözləri "**Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri** " sözləri ilə əvəz edilmişdir.

[2] 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, 101)** ilə 1-ci hissəsində “**iqtisadi inkişaf**” sözləri “**iqtisadiyyat və sənaye**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

[3] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 1-ci hissədə "**rabitə və informasiya texnologiyaları naziri** " sözləri "**rabitə və yüksək texnologiyalar naziri** " sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 1-ci hissədə "**Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri**" sözləri "**Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** " sözləri ilə əvəz edilmişdir.

[4] 23 iyun 2010-cu il tarixli **286** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 6, maddə 501**) ilə 1-ci bəndindən "**Məcid Kərimov — Azərbaycan Respublikası "Azərikimya" Dövlət Şirkətinin prezidenti** " sözləri çıxarılmışdır.

[5] 25 aprel 2008-ci il tarixli **2773** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 4, maddə 290**) ilə 1-ci bəndində "**Məcid Kərimov - Azərbaycan Respublikası "Azərikimya" Dövlət Şirkətinin prezidenti** " sözlərindən sonra "**Xoşbəxt Yusifzadə - Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti** " sözləri əlavə edilmişdir.